**Azərbaycan Respublikasının vətəndaşlığı haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

B i r i n c i f ə s i l

**ÜMUMİ MÜDDƏALAR**

M a d d ə 1 . Vətəndaşlıq hüququ

Azərbaycan Respublikası Konstitusiyasının 52-ci maddəsinə görə, Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının vətəndaşlarından doğulmuş şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır.

M a d d ə 2 . Vətəndaşlıq hüququnun təminatı

Azərbaycan Respublikası Konstitusiyasının 53-cü maddəsinin I hissəsinə görə, Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikasının vətəndaşlığından məhrum edilə bilməz.

Azərbaycan Respublikası Konstitusiyasının 53-cü maddəsinin II hissəsinə görə, Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikasından qovula və ya xarici dövlətə verilə bilməz.

Azərbaycan Respublikası Konstitusiyasının 53-cü maddəsinin III hissəsinə görə, Azərbaycan Respublikası onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir.

Vətəndaşlıq hüququnun təminatı üçün Azərbaycan dövləti öz orqanlarının və vəzifəli şəxslərinin simasında Azərbaycan Respublikası vətəndaşları qarşısında məsuliyyət daşıyır.

M a d d ə 3 . Bərabər vətəndaşlıq

Azərbaycan Respublikasının vətəndaşlığı onun əldə edilməsi əsaslarından asılı olmayaraq hamı üçün bərabərdir.

Azərbaycan Respublikası vətəndaşlarının hüquqları, azadlıqları və vəzifələri onların mənşəyindən, sosial və əmlak vəziyyətindən, irqi və milli mənsubiyyətindən, cinsindən, təhsilindən, dilindən, dinə münasibətindən, siyasi və başqa əqidələrindən, məşğuliyyət növündən və xarakterindən, yaşayış yerindən, həmin yerdə yaşadığı müddətdən və başqa hallardan asılı olmayaraq bərabərdir.

M a d d ə 4 . Vətəndaşlıq haqqında Azərbaycan Respublikasının qanunvericiliyi

Vətəndaşlıq haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu qanundan və Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktlarından ibarətdir.

M a d d ə 5 . Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyət

Aşağıdakı şəxslər Azərbaycan Respublikasının vətəndaşları sayılırlar:

1) bu qanunun qüvvəyə mindiyi günədək Azərbaycan Respublikasının vətəndaşlığında olmuş şəxslər , o şərtlə ki, Azərbaycan Respublikasının vətəndaşı bu Qanunun qüvvəyə mindiyi günədək Azərbaycan Respublikasında yaşayış yeri üzrə qeydiyyatda olsun;[1]

2) 1992-ci il yanvarın 1-dək Azərbaycan Respublikasının və ya başqa dövlətin vətəndaşı olmayan, lakin Azərbaycan Respublikasında yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər;

3) 1988-ci il yanvarın 1-dən 1992-ci il yanvarın 1-dək Azərbaycan Respublikasının ərazisində məskunlaşmış qaçqınlar;

4) bu qanuna müvafiq surətdə Azərbaycan Respublikası vətəndaşlığını əldə etmiş şəxslər.

Bu maddənin birinci hissəsinin 2-ci bəndində nəzərdə tutulmuş şəxslər o halda Azərbaycan Respublikasının vətəndaşlığını əldə edirlər ki, bu qanunun qüvvəyə mindiyi gündən bir il müddətində Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilmək haqqında ərizə ilə müraciət etsinlər.

Bu maddənin birinci hissəsinin 3-cü bəndi əsasında Azərbaycan Respublikası vətəndaşlığını əldə etmiş qaçqınlar tərk etdikləri dövlətlərə qayıtmaq hüququnu itirmirlər. Həmin şəxslərə Azərbaycan Respublikasının qanunvericiliyində məcburi köçkünlər üçün nəzərdə tutulmuş güzəştlər şamil edilir.

Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilir. Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.[2]

M a d d ə 6 . Azərbaycan Respublikasının vətəndaşlığını təsdiq edən sənədlər

Azərbaycan Respublikasının vətəndaşlığını təsdiq edən sənədlər aşağıdakılardır:

~~1) doğum haqqında şəhadətnamə;~~[3]

2) Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi;

*2-1) 15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı;* [4]
3) Azərbaycan Respublikasının vətəndaşının pasportu.

M a d d ə 7 . Nikah bağlandıqda və pozulduqda vətəndaşlığın saxlanması

Azərbaycan Respublikasının vətəndaşı olan kişi və ya qadın əcnəbi ilə və ya vətəndaşlığı olmayan şəxslə nikah bağlaması və ya nikahı pozması ər və arvadın vətəndaşlığının dəyişməsinə səbəb olmur.
Ərin (arvadın) vətəndaşlığının dəyişməsi arvadın (ərin) vətəndaşlığının dəyişməsinə səbəb olmur.

M a d d ə 8 . Azərbaycan Respublikasının ərazisindən kənarda yaşayan şəxslərin Azərbaycan Respublikası vətəndaşlığını saxlaması

Azərbaycan Respublikası vətəndaşının xarici dövlətin ərazisində yaşaması Azərbaycan Respublikası vətəndaşlığının xitamına səbəb olmur.

M a d d ə 9 . Azərbaycan Respublikasının ərazisindən kənarda yaşayan Azərbaycan Respublikası vətəndaşlarının Azərbaycan dövləti tərəfindən müdafiəsi

Azərbaycan Respublikasının dövlət orqanları, xarici dövlətlərdəki və beynəlxalq təşkilatlardakı diplomatik nümayəndəlikləri və konsulluqları, habelə onların vəzifəli şəxsləri Azərbaycan Respublikasının ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq hüquq sənədlərin, xarici dövlətin qanunvericiliyinə, Azərbaycan Respublikası ilə Azərbaycan Respublikası vətəndaşlarının yaşadığı dövlət arasında bağlanmış müqavilələrə, habelə beynəlxalq adətlərə uyğun olaraq onlara verilmiş bütün hüquqlardan tam həcmdə istifadə edə bilmələri üçün tədbirlər görməyə, qanunvericiliklə müəyyənləşdirilmiş qaydada onların qanunla qorunan hüquq və mənafelərini müdafiə etməyə, zərurət olduqda isə Azərbaycan Respublikası vətəndaşlarının pozulmuş hüquqlarının bərpası üçün tədbirlər görməyə borcludurlar.

M a d d ə 1 0 **Azərbaycan Respublikası vətəndaşının xarici dövlətin vətəndaşlığına mənsubiyyətinin tanınmaması**[5]

Azərbaycan Respublikasının vətəndaşı olan şəxsin ikili vətəndaşlığı olduqda (Azərbaycan Respublikası vətəndaşlığı ilə yanaşı, digər dövlətin (dövlətlərin) vətəndaşı olduqda) həmin şəxsin xarici dövlətin vətəndaşlığına mənsubiyyəti, Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulmuş və ya Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə müvafiq surətdə həll edilmiş hallar istisna olmaqla tanınmır.
Xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı bir ay müddətində bu barədə müvafiq icra hakimiyyəti orqanına yazılı məlumat verməlidir. ~~Belə məlumatı verməyən şəxslər Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar~~. [6]

İ k i n c i f ə s i l

## AZƏRBAYCAN RESPUBLİKASI VƏTƏNDAŞLIĞININ ƏLDƏ EDİLMƏSİ VƏ BƏRPASI

M a d d ə 1 1 . Azərbaycan Respublikası vətəndaşlığının əldə edilməsi əsasları

Şəxs Azərbaycan Respublikasının vətəndaşlığını aşağıdakı hallarda əldə edir:
1) Azərbaycan Respublikasının ərazisində (bu Qanunun 12-ci maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş hallar istisna olmaqla) və ya Azərbaycan Respublikasının vətəndaşından doğulduqda; [7]
2) Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edildikdə;
3) Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulmuş əsaslar olduqda;
4) bu qanunda nəzərdə tutulmuş başqa əsaslar olduqda.

M a d d ə 1 2 . **Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində doğulmuş uşaqlarının vətəndaşlığı**[8]

Azərbaycan Respublikasının ərazisində doğulmuş və hər iki valideyni əcnəbi olan uşaq Azərbaycan Respublikasının vətəndaşı hesab edilmir.
Azərbaycan Respublikasının ərazisində doğulmuş və valideynlərindən biri əcnəbi, digəri isə vətəndaşlığı olmayan şəxs olan uşaq Azərbaycan Respublikasının vətəndaşı hesab edilmir.
Azərbaycan Respublikasının ərazisində doğulmuş və hər iki valideyni vətəndaşlığı olmayan şəxs olan uşaq Azərbaycan Respublikasının vətəndaşıdır.

M a d d ə 1 3 . Valideynləri naməlum uşaqların vətəndaşlığı

Azərbaycan Respublikasının ərazisində olan, hər iki valideyni naməlum uşaq Azərbaycan Respublikasının vətəndaşıdır.

M a d d ə 1 4 . Azərbaycan Respublikasının vətəndaşlığına qəbul

Azərbaycan Respublikasının ərazisində son beş il ərzində fasiləsiz olaraq qanuni əsaslarla daimi yaşayan, qanuni gəlir mənbəyi olan, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına riayət olunması barədə öhdəlik götürən, habelə Azərbaycan Respublikasının dövlət dilini bilməsi haqqında sənəd təqdim edən əcnəbi və vətəndaşlığı olmayan şəxs mənşəyindən, irqi və milli mənsubiyyətindən, cinsindən, təhsilindən, dinə münasibətindən, siyasi və başqa əqidələrindən asılı olmayaraq bu qanuna müvafiq surətdə öz vəsatəti ilə Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilə bilər.[9]

Əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının ərazisində daimi yaşama müddəti ona qanunvericiliklə müəyyən edilmiş qaydada daimi yaşamaq üçün icazə *və ya qaçqın statusu* verildiyi gündən hesablanır *(bu maddənin dördüncü hissəsində nəzərdə tutulan hal istisna olmaqla)*.[10]

Azərbaycan Respublikasının ərazisində daimi yaşama müddəti o halda fasiləsiz hesab edilir ki, şəxs il ərzində Azərbaycan Respublikasının ərazisini üç aydan çox olmayan müddətə tərk etmiş olsun.

*Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda keçmiş SSRİ vətəndaşının pasportu və ya digər sənəd əsasında 2006-cı il yanvarın 1-dək Azərbaycan Respublikasına gələrək burada daimi yaşayan, heç bir dövlətin vətəndaşlığına mənsub olmayan və şəxsiyyətini təsdiq edən etibarlı sənədləri olmayan şəxsin heç bir dövlətin vətəndaşlığına mənsub olmaması, habelə Azərbaycan Respublikasında daimi yaşaması faktı məhkəmə tərəfindən müəyyən edilir. Bu müddəa könüllü olaraq mənsub olduğu dövlətin vətəndaşlığından çıxmış şəxslərə şamil edilmir.*[11]

Aşağıdakı hallarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər bu maddənin birinci hissəsində göstərilən müddət nəzərə alınmadan Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilə bilərlər:

1) şəxsin elm, texnika, mədəniyyət və ya idman sahələrində yüksək nailiyyətləri olduqda;

2) şəxs Azərbaycan Respublikası üçün xüsusi maraq kəsb etdikdə və digər müstəsna hallarda.

Bu hallarda əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilməsinin məqsədəuyğunluğu müvafiq icra hakimiyyəti orqanı tərəfindən əsaslandırılmalıdır.

Şəxsin Azərbaycan Respublikasının qarşısında xüsusi xidmətləri olduqda o, bu maddənin birinci hissəsində göstərilən şərtlər nəzərə alınmadan Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilə bilər.[12]

Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilməsi barədə vəsatət qaldıran şəxs Azərbaycan Respublikasının Konstitusiyası ilə təsbit olunmuş dövlət quruluşunu zorakılıqla dəyişdirməyə, Azərbaycan Respublikasının ərazi bütövlüyünü pozmağa çağırışlar edərsə, dövlət təhlükəsizliyinə, ictimai asayişin qorunmasına, əhalinin sağlamlığına və ya mənəviyyatına zərər vuran fəaliyyət göstərərsə, irqi, dini və milli müstəsnalığı təbliğ edərsə, terrorçuluq fəaliyyəti ilə əlaqəsi olarsa, vətəndaşlığa qəbul haqqında vəsatəti rədd edilir.

Azərbaycan Respublikası vətəndaşlığına qəbul haqqında qərar Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 20-ci bəndinə müvafiq surətdə qəbul olunur.

Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilməsi barədə vəsatət qaldıran şəxs *tərəfindən müvafiq dövlət rüsumunun ödənilməsi məsələsi "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.*

M a d d ə 1 5 . Azərbaycan Respublikasının vətəndaşlığına bərpa

Əvvəllər Azərbaycan Respublikasının vətəndaşı olmuş və ya Azərbaycan Respublikası vətəndaşlığına xitam verilmiş şəxsin vəsatəti ilə o, bu qanunun 14-cü maddəsinin *səkkizinci* hissəsində sadalanmış məhdudiyyətlər nəzərə alınmaqla Azərbaycan Respublikasının vətəndaşlığına bərpa edilə bilər.[13]

Azərbaycan Respublikasının vətəndaşlığına bərpa edilməsi barədə vəsatət qaldıran şəxs *tərəfindən müvafiq dövlət rüsumunun ödənilməsi məsələsi "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.*[14]

*Azərbaycan Respublikası vətəndaşlığına bərpa haqqında qərar Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 20-ci bəndinə müvafiq surətdə qəbul olunur.*[15]

*M a d d ə 15-1.* ***Azərbaycan Respublikası vətəndaşının andi***[16]

*Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilmiş və ya Azərbaycan Respublikasının vətəndaşlığına bərpa edilmiş və 14 yaşı tamam olmuş şəxs Azərbaycan Respublikasının dövlət dilində Azərbaycan Respublikasına sadiq olacağı barədə aşağıdakı məzmunda and içir:*

*"Mən, (Soyadı, Adı, Atasının adı) Azərbaycan Respublikasının vətəndaşı olaraq, hər hansı xarici dövlət qarşısında onun vətəndaşlığı ilə bağlı öhdəliklərimin olmadığına, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabe olacağıma, Azərbaycan dövlətinə sədaqətlə xidmət edəcəyimə, onun müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qoruyacağıma, Azərbaycan xalqının adət-ənənələrinə və mədəniyyətinə hörmət edəcəyimə and içirəm.".*

*Andiçmə təntənəli şəraitdə Azərbaycan Respublikasının Dövlət bayrağı önündə Azərbaycan Respublikasının Konstitusiyasına əl basmaqla həyata keçirilir.*

*And içən Azərbaycan Respublikasının vətəndaşı andın mətnini imzalayır və bu sənəd müvafiq icra hakimiyyəti orqanında saxlanılır.*

Ü ç ü n c ü f ə s i l

## AZƏRBAYCAN RESPUBLİKASININ VƏTƏNDAŞLIĞINA XİTAM VERİLMƏSİ

M a d d ə 1 6 . Azərbaycan Respublikasının vətəndaşlığına xitam verilməsi üçün əsaslar

Azərbaycan Respublikasının vətəndaşlığına aşağıdakı hallarda xitam verilir:
1) Azərbaycan Respublikasının vətəndaşlığından çıxmaq nəticəsində;
2) Azərbaycan Respublikasının vətəndaşlığını itirmək nəticəsində;
3) Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulmuş əsaslar olduqda;
4) bu qanunda nəzərdə tutulmuş digər əsaslar olduqda.

~~*Azərbaycan Respublikası vətəndaşlığına xitam verilməsi haqqında qərar Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 20-ci bəndinə müvafiq surətdə qəbul olunur.*~~[17]

M a d d ə 1 7 . Azərbaycan Respublikasının vətəndaşlığından çıxma

Azərbaycan Respublikasının vətəndaşlığından çıxma bu qanunla müəyyənləşdirilmiş qaydada şəxsin vəsatəti üzrə həyata keçirilir.

Azərbaycan Respublikasının vətəndaşlığından çıxmaq barəsində vəsatət qaldıran şəxsin dövlət qarşısında icra edilməmiş öhdəlikləri və ya Azərbaycan Respublikasında hüquqi və fiziki şəxslərin mənafeləri ilə bağlı olan əmlak öhdəlikləri varsa, vətəndaşlıqdan çıxmaq haqqında vəsatəti rədd edilə bilər.

Azərbaycan Respublikasının vətəndaşlığından çıxmaq barəsində vəsatət qaldıran şəxs cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb edilmişsə, yaxud onun barəsində qanuni qüvvəyə minmiş və icra edilməli olan məhkəmə hökmü varsa və ya şəxsin Azərbaycan Respublikası vətəndaşlığından çıxması Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi mənafelərinə ziddirsə, həmin hallar aradan qalxana qədər vətəndaşlıqdan çıxmağa yol verilmir.[18]

Azərbaycan Respublikasının vətəndaşlığından çıxmaq barəsində vəsatət qaldıran şəxs *tərəfindən müvafiq dövlət rüsumunun ödənilməsi məsələsi "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.* [19]

*Azərbaycan Respublikası vətəndaşlığından çıxma haqqında qərar Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 20-ci bəndinə müvafiq surətdə qəbul olunur.*[20]

M a d d ə 1 8 . **Azərbaycan Respublikası vətəndaşlığının itirilməsi**[21]

"Vətəndaşsızlığın ixtisar edilməsi haqqında" 1961-ci il 30 avqust tarixli Konvensiyanın müddəaları nəzərə alınmaqla, aşağıdakılar Azərbaycan Respublikası vətəndaşlığının itirilməsi üçün əsas hesab edilir:
1) Azərbaycan Respublikası vətəndaşının digər dövlətin vətəndaşlığını könüllü əldə etməsi;
2) Azərbaycan Respublikası vətəndaşının xarici dövlətin dövlət və ya bələdiyyə orqanlarında, yaxud silahlı qüvvələrində və ya digər silahlı birləşmələrində könüllü xidmət etməsi;
3) Azərbaycan Respublikası vətəndaşının dövlətin təhlükəsizliyinə ciddi zərər vuran davranışı;
*3-1) Azərbaycan Respublikası vətəndaşının terror fəaliyyətində iştirakı və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətləri həyata keçirməsi;*[22]
*3-2) Azərbaycan Respublikası vətəndaşının dini ekstremist fəaliyyətdə iştirakı, o cümlədən dini düşmənçilik zəminində dini məzhəblərin yayılması və ya dini ayinlərin icrası adı altında xarici dövlətdə silahlı münaqişədə iştirak etməsi və ya həmin münaqişəyə digər şəxsi cəlb etməsi, yaxud bu məqsədlə sabit qrup yaratması, habelə Azərbaycan Respublikası vətəndaşının dini təhsil adı altında xarici dövlətdə hərbi təlim keçməsi;*
4) Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmiş şəxsin vətəndaşlığa qəbul olunmaq üçün zəruri olan məlumatı qəsdən saxtalaşdırması və ya saxta sənəd təqdim etməsi.

Azərbaycan Respublikası vətəndaşlığının itirilməsi məsələsi bu Qanunun 17-ci maddəsinin ikinci və üçüncü hissələrində göstərilən məhdudiyyətlər nəzərə alınmaqla *məhkəmə tərəfindən* həll edilir. [23]

D ö r d ü n c ü f ə s i l

## VALİDEYNLƏRİN VƏTƏNDAŞLIĞI DƏYİŞDİKDƏ VƏ ÖVLADLIĞA GÖTÜRÜLDÜKDƏ UŞAQLARIN VƏTƏNDAŞLIĞI

M a d d ə 1 9 . Valideynlərin vətəndaşlığı dəyişdikdə uşaqların vətəndaşlığının dəyişməsi

Valideynlərin vətəndaşlığı dəyişdikdə və bunun nəticəsində hər ikisi Azərbaycan Respublikasının vətəndaşlığını əldə etdikdə, onların 14 yaşına çatmamış uşaqları da Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmiş olurlar.

Uşağın valideynlərindən biri məlumdursa, həmin valideyn Azərbaycan Respublikasının vətəndaşlığını əldə etdikdə, onun 14 yaşına çatmamış uşağı da Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmiş olur.

M a d d ə 2 0 . Üzərində qəyyumluq və ya himayəçilik müəyyən edilmiş uşağın Azərbaycan Respublikası vətəndaşlığının saxlanması

Azərbaycan Respublikasının ərazisində yaşayan uşağın hər iki valideyni və ya yeganə valideyni Azərbaycan Respublikasının vətəndaşlığından çıxırsa, həm də üzərində Azərbaycan Respublikası vətəndaşlarının qəyyumluğu və ya himayəçiliyi müəyyən edilmiş uşağın böyüdülməsində iştirak etmirsə, valideynlərin, qəyyumun və himayəçinin vəsatəti ilə uşaq Azərbaycan Respublikasının vətəndaşlığını saxlayır.

M a d d ə  2 1 . Valideynlərdən biri Azərbaycan Respublikasının vətəndaşlığını əldə etdikdə uşaqların Azərbaycan Respublikası vətəndaşlığını əldə etməsi

Valideynlərdən biri Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmiş şəxsdirsə, digəri isə əcnəbidirsə, uşaq Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmiş valideynin vəsatəti və əcnəbi valideynin razılığı ilə Azərbaycan Respublikasının vətəndaşlığını əldə edə bilər.

Azərbaycan Respublikasının ərazisində yaşayan uşağın valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmiş şəxsdirsə, digəri isə vətəndaşlığı olmayan şəxsdirsə, uşaq Azərbaycan Respublikasının vətəndaşlığını əldə edir.

Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan uşağın valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmiş şəxsdirsə, digəri isə vətəndaşlığı olmayan şəxsdirsə, uşaq Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmiş valideynin vəsatəti və vətəndaşlığı olmayan valideynin razılığı ilə Azərbaycan Respublikasının vətəndaşlığını əldə edə bilər.

M a d d ə  2 2 . Valideynlərdən birinin Azərbaycan Respublikası vətəndaşlığına xitam verildikdə uşaqların Azərbaycan Respublikası vətəndaşlığını saxlaması

Valideynlərdən birinin Azərbaycan Respublikası vətəndaşlığına xitam verilirsə, digəri isə Azərbaycan Respublikası vətəndaşlığında qalırsa, uşaq Azərbaycan Respublikası vətəndaşlığını saxlayır. Azərbaycan Respublikası vətəndaşlığına xitam verilən valideynin vəsatəti və Azərbaycan Respublikası vətəndaşlığında qalan valideynin razılığı ilə uşağın Azərbaycan Respublikası vətəndaşlığından çıxmasına icazə verilə bilər.

M a d d ə  2 3 . Övladlığa götürüldükdə uşaqların Azərbaycan Respublikası vətəndaşlığını əldə etməsi

Azərbaycan Respublikasının vətəndaşları əcnəbi uşağı və ya vətəndaşlığı olmayan uşağı övladlığa götürürlərsə, həmin uşaq Azərbaycan Respublikasının vətəndaşlığını əldə edir.

Əcnəbi uşağı övladlığa götürən ər-arvaddan biri Azərbaycan Respublikasının vətəndaşıdırsa, digəri isə vətəndaşlığı olmayan şəxsdirsə, həmin uşaq Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmiş olur.

Əcnəbi uşağı övladlığa götürən ər-arvaddan biri Azərbaycan Respublikasının vətəndaşıdırsa, digəri isə əcnəbidirsə, həmin uşaq övladlığa götürənlərin razılığı ilə Azərbaycan Respublikasının vətəndaşlığını əldə edə bilər.

Vətəndaşlığı olmayan uşağı övladlığa götürən ər-arvaddan biri Azərbaycan Respublikasının vətəndaşıdırsa, digəri isə vətəndaşlığı olmayan şəxsdirsə, həmin uşaq Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmiş olur.

Vətəndaşlığı olmayan uşağı övladlığa götürən ər-arvaddan biri Azərbaycan Respublikasının vətəndaşıdırsa, digəri isə əcnəbidirsə, həmin uşaq övladlığa götürənlərin razılığı ilə Azərbaycan Respublikasının vətəndaşlığını əldə edə bilər.

M a d d ə  2 4 . Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldükdə uşaqların vətəndaşlığının müəyyən edilməsi

Əcnəbilər Azərbaycan Respublikasının vətəndaşı olan uşağı övladlığa götürdükdə onların vəsatəti əsasında həmin uşağın Azərbaycan Respublikası vətəndaşlığına xitam verilir.

Azərbaycan Respublikasının vətəndaşı olan uşağı övladlığa götürən ər-arvaddan biri Azərbaycan Respublikasının vətəndaşıdırsa, digəri isə əcnəbidirsə, övladlığa götürülən uşaq Azərbaycan Respublikasının vətəndaşlığını saxlayır. Övladlığa götürənlərin vəsatəti ilə uşaq Azərbaycan Respublikası vətəndaşlığından çıxa bilər.

Azərbaycan Respublikasının vətəndaşı olan uşağı övladlığa götürən ər-arvadın hər ikisi vətəndaşlığı olmayan şəxsdirsə, yaxud biri Azərbaycan Respublikasının vətəndaşıdırsa, digəri isə vətəndaşlığı olmayan şəxsdirsə, həmin uşaq Azərbaycan Respublikasının vətəndaşlığını saxlayır.

M a d d ə  2 5 . Uşaqların vətəndaşlığının dəyişməsi üçün onların razılığının zəruriliyi

Bu qanunun 19 — 24-cü maddələrində nəzərdə tutulmuş hallarda 14 yaşından 18 yaşınadək uşaqların vətəndaşlığı yalnız onların razılığı ilə dəyişə bilər.

## B e ş i n c i  f ə s i l

## VƏTƏNDAŞLIQ MƏSƏLƏLƏRİ İLƏ BAĞLI BEYNƏLXALQ HÜQUQ NORMALARININ QÜVVƏSİ

M a d d ə  2 6 . Vətəndaşlıq məsələləri ilə bağlı beynəlxalq hüquq normalarının qüvvəsi

Bu qanunla Azərbaycan Respublikasının beynəlxalq müqavilələri arasında ziddiyyət yaranarsa, həmin müqavilələr tətbiq edilir.

**Azərbaycan Respublikasının Prezidenti   HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 30 sentyabr 1998-ci il
527-IQ

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 30 sentyabr 2005-ci il tarixli **1021-IIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (" **Azərbaycan " qəzeti, 2 noyabr 2005-ci il, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 10, maddə 905**)
2. 24 iyun 2008-ci il tarixli **658-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu ( **"Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 8, maddə 701**)
3. 30 may 2014-cü il tarixli **973-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 1 iyul 2014-cü il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 620**)
4. 30 dekabr 2014-cü il tarixli **1161-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 5 fevral 2015-ci il, 027, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 2, maddə 93**)
5. 30 sentyabr 2015-ci il tarixli **1340-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 21 noyabr 2015-ci il, 256, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 11, maddə 1255**)
6. 04 dekabr 2015-ci il tarixli **28-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 06 dekabr 2015-ci il, 269, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 12, maddə 1442**)
7. 24 iyun 2016-cı il tarixli **302-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 5 avqust 2016-cı il, 168, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1367**)
8. 31 may 2017-ci il tarixli **705-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **"Azərbaycan" qəzeti, 30 iyun 2017-ci il, 137, "Azərbaycan" qəzeti, 5 iyul 2017-ci il, 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 6, maddə 1059**)
9. 1 fevral 2018-ci il tarixli **980-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 3 mart 2018-ci il, 49, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 161**)
10. 1 oktyabr 2018-ci il tarixli **1267-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 oktyabr 2018-ci il, 242 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 10, maddə 1970**)
11. 1 fevral 2019-cu il tarixli **1468-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 mart 2019-cu il, 59, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 371**)
12. 1 may 2020-ci il tarixli **70-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 23 may 2020-ci il, 101, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 520**)

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 24 iyun 2008-ci il tarixli **658-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu ( **"Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 8, maddə 701**) ilə 5-ci maddənin birinci hissəsinin 1-ci bəndində " **(əsas: bu Qanunun qüvvəyə mindiyi günədək şəxsin Azərbaycan Respublikasında yaşayış yeri üzrə qeydiyyatda olması)**" sözləri "**, o şərtlə ki, Azərbaycan Respublikasının vətəndaşı bu Qanunun qüvvəyə mindiyi günədək Azərbaycan Respublikasında yaşayış yeri üzrə qeydiyyatda olsun;**" sözləri ilə əvəz edilmişdir.

[2] 30 may 2014-cü il tarixli **973-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 1 iyul 2014-cü il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 620**) ilə 5-ci maddəyə yeni məzmunda dördüncü hissə əlavə edilmişdir.

[3] 30 may 2014-cü il tarixli **973-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 1 iyul 2014-cü il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 620**) ilə 6-cı maddənin 1-ci bəndi ləğv edilmişdir.

[4] 1 fevral 2019-cu il tarixli **1468-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 mart 2019-cu il, 59, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 371**) ilə 6-cı maddəyə yeni məzmunda 2-1-ci bənd əlavə edilmişdir.

[5] 30 may 2014-cü il tarixli **973-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 1 iyul 2014-cü il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 620**) ilə 10-cu maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~M a d d ə 1 0 . Azərbaycan Respublikası vətəndaşının xarici dövlətin vətəndaşlığına mənsubiyyətinin tanınmaması~~

~~Azərbaycan Respublikasının vətəndaşı olan şəxsin xarici dövlətin vətəndaşlığına mənsubiyyəti, Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulmuş və ya Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə müvafiq surətdə həll edilmiş hallar istisna olmaqla tanınmır.~~

[6] 1 may 2020-ci il tarixli **70-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 23 may 2020-ci il, 101, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 520**) ilə 10-cu maddəsinin ikinci hissəsinin ikinci cümləsi çıxarılmışdır.

[7] 30 may 2014-cü il tarixli **973-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 1 iyul 2014-cü il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 620**) ilə 11-ci maddənin 1-ci bəndində "**ərazisində**" sözündən sonra "**(bu Qanunun 12-ci maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş hallar istisna olmaqla)**" sözləri əlavə edilmişdir.

[8] 30 may 2014-cü il tarixli **973-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 1 iyul 2014-cü il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 620**) ilə 12-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~M a d d ə 1 2 . Vətəndaşlığı olmayan şəxslərin uşaqlarının Azərbaycan Respublikası vətəndaşlığını əldə etməsi~~

~~Vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası ərazisində doğulmuş uşağı Azərbaycan Respublikasının vətəndaşıdır.~~

[9] 24 iyun 2008-ci il tarixli **658-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 8, maddə 701**) ilə 14-cü maddənin birinci hissədə "**yaşayan və**" sözləri "**fasiləsiz olaraq qanuni əsaslarla daimi yaşayan, qanuni gəlir mənbəyi olan, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına riayət olunması barədə öhdəlik götürən, habelə**" sözləri ilə əvəz edilmişdir.

[10] 24 iyun 2016-cı il tarixli **302-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 5 avqust 2016-cı il, 168, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1367**) ilə 14-cü maddəsinin ikinci hissəsinə "**icazə**" sözündən sonra "**və ya qaçqın statusu**" sözləri əlavə edilmişdir.

1 fevral 2018-ci il tarixli **980-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 3 mart 2018-ci il, 49 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 161**) ilə 14-cü maddənin ikinci hissəsinə "**hesablanır**" sözündən sonra "**(bu maddənin dördüncü hissəsində nəzərdə tutulan hal istisna olmaqla)**" sözləri əlavə edilmişdir.

[11] 1 fevral 2018-ci il tarixli **980-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 3 mart 2018-ci il, 49 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 161**) ilə 14-cü maddənin dördüncü-doqquzuncu hissələri müvafiq olaraq beşinci-onuncu hissələr hesab edilmişdir və yeni məzmunda dördüncü hissə əlavə edilmişdir.

[12] 24 iyun 2008-ci il tarixli **658-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 8, maddə 701**) ilə 14-cü maddəyə ikinci-altıncı hissələr əlavə edilmişdir, ikinci-dördüncü hissələr müvafiq olaraq yeddinci – doqquzuncu hissələr hesab edilmişdir.

[13] 30 may 2014-cü il tarixli **973-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 1 iyul 2014-cü il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 620**) ilə 15-ci maddənin birinci hissəsində "**ikinci**" sözü "**yeddinci**" sözü ilə əvəz edilmişdir.

1 oktyabr 2018-ci il tarixli **1267-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 27 oktyabr 2018-ci il, 242 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 10, maddə 1970** ) ilə 15-ci maddənin birinci hissəsində "**yeddinci**" sözü "**səkkizinci**" sözü ilə əvəz edilmişdir.

[14] 30 sentyabr 2005-ci il tarixli **1021-IIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu ("**Azərbaycan " qəzeti, 2 noyabr 2005-ci il, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 10, maddə 905**) ilə 15-ci maddəyə ikinci hissə əlavə edilmişdir.

[15] 30 sentyabr 2015-ci il tarixli **1340-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 21 noyabr 2015-ci il, 256, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 11, maddə 1255**) ilə 15-ci maddəyə yeni məzmunda üçüncü hissə əlavə edilmişdir.

[16] 30 dekabr 2014-cü il tarixli **1161-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 5 fevral 2015-ci il, 027 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 2, maddə 93**) ilə yeni məzmunda 15-1-ci maddə əlavə edilmişdir.

[17] 30 sentyabr 2015-ci il tarixli **1340-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 21 noyabr 2015-ci il, 256, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 11, maddə 1255**) ilə 16-cı maddənin ikinci hissəsi ləğv edilmişdir.

[18] 30 may 2014-cü il tarixli **973-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 1 iyul 2014-cü il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 620**) ilə 17-ci maddənin üçüncü hissəsində "**müttəhim kimi cinayət məsuliyyətinə**" sözləri "**cinayət işi üzrə təqsirləndirilən şəxs qismində**" sözləri ilə əvəz edilmişdir.

[19] 31 may 2017-ci il tarixli **705-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **"Azərbaycan" qəzeti, 30 iyun 2017-ci il, 137, "Azərbaycan" qəzeti, 5 iyul 2017-ci il, 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 6, maddə 1059** ) ilə 14-cü maddəsinin doqquzuncu, 15-ci maddəsinin ikinci və 17-ci maddəsinin dördüncü hissələrində "**Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada və məbləğdə dövlət rüsumu ödəyir**" sözləri "**tərəfindən müvafiq dövlət rüsumunun ödənilməsi məsələsi "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir**" sözləri ilə əvəz edilmişdir.

[20] 30 sentyabr 2015-ci il tarixli **1340-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 21 noyabr 2015-ci il, 256, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 11, maddə 1255**) ilə 17-ci maddəyə yeni məzmunda beşinci hissə əlavə edilmişdir.

[21] 30 may 2014-cü il tarixli **973-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 1 iyul 2014-cü il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 620**) ilə 18-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~M a d d ə 1 8 . Azərbaycan Respublikası vətəndaşlığının itirilməsi~~

~~Şəxs Azərbaycan Respublikası vətəndaşlığını əldə edərkən vətəndaşlığı almaq üçün zəruri olan məlumatı qəsdən saxtalaşdırmışsa və ya saxta sənəd təqdim etmişsə, əldə etdiyi~~

[22] 04 dekabr 2015-ci il tarixli **28-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 06 dekabr 2015-ci il, 269 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 12, maddə 1442**) ilə 18-ci maddəsinin birinci hissəsinə yeni məzmunda 3-1-ci və 3-2-ci bəndlər əlavə edilmişdir.

[23] 30 sentyabr 2015-ci il tarixli **1340-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 21 noyabr 2015-ci il, 256, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 11, maddə 1255**) ilə 18-ci maddənin ikinci hissəsinə "**nəzərə alınmaqla**" sözlərindən sonra "**məhkəmə tərəfindən**" sözləri əlavə edilmişdir.